

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

16 yanvar 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 2 (3714)


# Bizi milli maraqlar birləşdirir

## Hər iki ölkədə sabitlik və əmin-amanlıq hökm sürür

**Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı davamlı xarakter daşıyır. Bunun bariz göstəricilərindən biri son illər qeyri-neft ticarətinin ümumi həcminin bir neçə dəfə artmasıdır. Xüsusən kənd təsərrüfatı, texnologiya, əczaçılıq və enerji infrastrukturuna investisiya yönəldilməsi prioritet təşkil edir.**



Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri iqtisadi əlaqələrin də getdikcə inkişafına böyük təkan verir. Prezident İlham Əliyevin yanvarın 13-də BƏƏ-yə baş tutan işgüzar səfəri, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimində iştirak etməsi ilə münasibətlərin növbəti səhifəsi açılır.

Əbu-Dabidə Prezidentlər görüşərkən qarşılıqlı səfərlərin əhəmiyyətinə diqqət çəkiblər. Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ötən ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərlərini, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladıb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin COP29-da iştirakını bir daha yüksək qiymətləndirən dövlətimizin başçısı da qeyd edib ki, bu mühüm beynəlxalq tədbirin uğurla başa çatdırılmasında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlığı və bu ölkənin konsepsiyası da öz rolunu oynayıb.

Dövlət başçıları münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyərək, Azərbaycan ilə BƏƏ arasında dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu vurğulayıblar. Hazırda ölkələrimizdə sabitliyin və əmin-amanlığın hökm sürdüyü qeyd olunub.

Siyasi münasibətlərimizin mükəmməl səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi-ticari əlaqələrin genişləndiyini qeyd edib, Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyaların da dostluğumuzun və tərəfdaşlığımızın nümunəsi olduğunu vurğulayıb. Həmçinin ölkələrimizin ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq etdiyi qeyd olunub.

Qeyd edək ki, iki ölkə təmiz və bərpaolunan enerj sahəsində davamlı əməkdaşlıq etməklə hazırda bəşəriyyətin üzləşdiyi ən böyük problem olan iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizədə səylərini artırıb.

Ölkələrimizin birgə reallaşdırdığı "yaşıl enerji" layihələri xüsusi əhəmiyyət kəsb edir. BƏƏ-nin "Masdar" şirkətinin ölkəmizdə bərpaolunan enerji layihələrinin həyata keçməsində önəmli rolu var.

Məlum olduğu kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsi də əhəmiyyətli yer alıb.

Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin indiki payını 17,3 faizdən 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır. Bu məqsədə doğru atılan inamlı və uğurlu addımlardan biri də məhz "Masdar" şirkəti tərəfindən "Qaradağ" Günəş-Elektrik Stansiyasının 2023-cü ildə tikintisinin başa çatdırılıb istifadəyə verilməsi oldu.

Göründüyü kimi Azərbaycan müsəlman ölkəsi olaraq bu coğrafiyaya daxil olan dövlətlərlə yüksək səviyyədə əməkdaşlığını davam etdirir, siyasi, mədəni, iqtisadi, sosial və digər sahələrdə qurulan əlaqələrin yeni mərhələyə yüksəlməsi istiqamətində səylərini əsirgəmir.

Bütün bunları nəzərə alaraq söyləmək olar ki, iki ölkənin birgə səyləri nəticəsində Azərbaycan-BƏƏ əlaqələri bundan sonra da yüksələn xətlə inkişaf edəcək və hər iki ölkənin vətəndaşlarının rifahına xidmət göstərəcək.

# Prezidentin qəbulu

## Əməkdaşlıq genişləndirilir

Prezident İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.Görüşdə təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyi qeyd edilib.

# Yeni səfirlər gəlib

## Prezident etimadnamələri qəbul edib

Prezident İlham Əliyev yanvarın 10-da Litva Respublikasının və Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib. Prezident səfirlərlə söhbət edib. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirib, onlara fəaliyyətində uğurlar arzulayıb.

# Qarşılıqlı razılaşma

## Təmaslar davam etdiriləcək

Prezident İlham Əliyevə yanvarın 9-da zəng edən Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta təyyarə qəzasının hərtərəfli araşdırılması ilə bağlı ölkəmizin mövqeyini dəstəklədiyini bildirib.Telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Ölkəmiz liderdir

## MDB və qonşu ölkələri qabaqlamışıq

Ümumdünya İqtisadi Forumunun hazırladığı ötən ilin enerji keçidi indeksinə görə, Azərbaycan Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətləri üstələyib. Respublikamız 120 ölkə arasında, ümumilikdə 38-ci yerdə qərarlaşıb və bununla da MDB ölkələrini, eləcə də qonşu dövlətləri geridə qoyub.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev yanvarın 11-də gömrük işinin inkişaf etdirilməsində xidmətlərinə və gömrük orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Soltan oğlu Bağırovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

- Prezident İlham Əliyev yanvarın 10-da Samir Rauf oğlu Şərifovun Azərbaycan Respublikası Baş nazirinin müavini təyin edilməsi haqqında Sərəncam imzalayıb.

- Prezident İlham Əliyev yanvarın 10-da "Rəqəmsal ekologiya" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında Fərman imzalayıb.

- Prezident İlham Əliyev yanvarın 10-da "Milli Məkan Məlumatları" informasiya sistemi haqqında Əsasnamə"-nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə Fərman imzalayıb. Fərmana əsasən, İqtisadiyyat Nazirliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə "Milli Məkan Məlumatları" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etməlidir.

# Sabitlik, inkişaf, rifah

## Prioritet vətəndaşın təhlükəsizliyi, qayğıları və xoşbəxtliyidir

Son illərdə ölkəmizin sosial inkişaf strategiyasının formalaşdırılması, müasir və dayanıqlı sosial müdafiə sisteminin qurulması istiqamətində çoxsaylı layihələr gerçəkləşdirilib. Nəticə etibarı ilə sabitlik şəraitində xalqımızın rifahı getdikcə yaxşılaşıb, yoxsulluq səviyyəsi azalıb, yeni iş yerləri yaradılıb.

Prezident İlham Əliyevin strateji inkişaf kursunun uğurla icrası respublikamızın yuxarı orta gəlirli ölkələr qrupuna daxil olmasını şərtləndirib. Paytaxtda, eləcə də regionlarda infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi diqqətdə saxlanılıb, məktəblərin və yolların təmiri, eləcə də bu qəbildən olan məsələlərin həlli sürətləndirilib.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır". Dövlət başçısının bu sözləri onun tapşırıqları əsasında ardıcıl həyata keçirilən, son illər bir-birinin ardınca reallaşdırılan, hər biri vətəndaşların rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatların yekununda aydın və əməli təsdiqini tapır.

Ölkə rəhbərinin müvafiq fərman və sərəncamları əsasında 2018–2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin gerçəkləşdirilməsi, nəzərdə tutulan islahatların icrası məqsədilə 7 milyard manat əlavə illik vəsait ayrılması da Azərbaycanın sosial dövlət olmasından xəbər verir.

Təkcə qeyd edilən dövr ərzində ölkədə minimum pensiyanın 2,5 dəfə, orta aylıq pensiyanın 2,4 dəfə, müavinət və təqaüd ödənişlərinin 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğinin 2,7 dəfə, minimum əməkhaqqının 2,7 dəfə, orta aylıq əməkhaqqının 2 dəfəyədək, əmək haqqı fondunun 3 dəfə və əmək müqavilələrinin sayının 609 min (48 faiz) artması bunun bariz ifadəsidir.

Ekspertlərin qənaətincə, bu il də sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faizə yüksəlməsi sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Məsələn, əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 milyard manat artım diqqət çəkir. Həmin vəsait 2018-ci ildə 1,2 milyard manat təşkil edirdisə, hazırda 2,5 milyard manata yaxındır.

Ölkədə həyata keçirilən sosial siyasətdən bəhs edərkən, bir məqamı da xüsusi vurğulamaq zəruridir. Bu da əhalinin məşğulluğunun təminatı istiqamətində reallaşdırılan layihələrin daim diqqətdə saxlanılması ilə bağlıdır

Bu yöndə qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramları da yüksək səviyyədə gerçəkləşdirilir.


Təhlükəsiz Bakı metrosu 2

Sıramızdakı qəhrəmanlar 3

Polislər şagirdlərlə görüşüblər 3

Yaraşıqlı qatil - Ted Bandi 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Seçkilərə namizədlərin sayı bəllidir

Bələdiyyə seçkilərində 16 min 128 nəfərin namizədliyi qeydə alınıb. Bununla bağlı Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov jurnalistlərə deyib ki, namizədlər 23 siyasi partiyanı təmsil edirlər. O, bələdiyyə seçkilərində 66 mindən artıq müşahidəçinin akkreditasiyadan keçdiyini də bildirib. Qeyd edək ki, seçkilər yanvarın 29-da keçiriləcək.

### Qarabağda məşğulluq təmin edilir

İşğaldan azad edilmiş ərazilərdə sakinlər arasında iqtisadi fəal əhalinin 86 faizinin məşğulluğu təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 25,3 mindən çox şəxsin məşğulluğuna dəstək göstərib, onlardan 12,2 min şəxs özünüməşğulluq proqramına, 1054 nəfər peşə hazırlığına cəlb edilib, digərləri münasib işlə təmin olunub. 524 şəhid ailəsi üzvü və müharibə veteranı üçün kiçik təsərrüfatlar qurulub.

### 20 Yanvarın növbəti ildönümüdür

Bakıda, Şəhidlər xiyabanında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı hazırlıq işlərinə başlanılıb. Ənənəvi olaraq faciənin ildönümü ilə əlaqədar xiyabanın girəcəyində Hüzn günü ilə bağlı hazırlıq işləri aparılır. Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

### Yeni metrostansiyalar tikiləcək

Bakı metrosunun 2030-cu ilə qədər inkişaf proqramına əsasən, 10 yeni stansiyanın tikintisinin tamamlanması planlaşdırılır. Proqram çərçivəsində sərnişin axınını 88 milyon nəfər artırmaq məqsədilə 2 stansiyanın tikintisinin başa çatdırılması, 1 stansiyanın təmir edilməsi və 8 yeni stansiyanın inşası planlaşdırılır. Artıq 6 stansiyanın yeri müəyyənləşdirilib.

### Sosial rifah səviyyəsi yüksəlir

Bu ilin əvvəlindən həyata keçirilən yeni sosial islahat paketi pensiyaların indeksləşdirilərək artırılması da daxil olmaqla, ümumilikdə 3 milyon insanı əhatə edəcək. Həmin şəxslərə yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün əlavə olaraq 1,4 milyard manat ayrılıb. Bu, əvvəlki islahat paketinə nisbətən 87 faizlik artım deməkdir.

### Sürücülərin nəzərinə...

Baş Dövlət Yol Polisi İdarəsinin paytaxtın Sabunçu rayonu Zabrat qəsəbəsində və Lökbatan dairəsindən Yeni Yasamal yaşayış massivinə gedən yolun üzərində yerləşən Texniki Müayinə Mərkəzlərinin iş qrafikində dəyişiklik edilib. Yanvar 15-dən etibarən həmin mərkəzlər həftənin I-VI günləri saat 23:00-dək, həftənin bazar günü isə saat 18:00-dək fəaliyyət göstərəcək.

### Cəbrayıla növbəti köç

Cəbrayıla daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib. Bununla bağlı keçirilən mərasimdə 165 nəfərdən ibarət 39 ailəyə mənzillərin açarları təqdim edilib. Beləliklə, ümumilikdə Cəbrayıl şəhərinə cəmi 326 ailə (1334 nəfər) köçürülüb.

### Yeni sosial xidmət mərkəzləri açılacaq

Bu il Sosial Xidmətlər Agentliyinin daha beş sosial xidmət mərkəzi fəaliyyətə başlayacaq. Onlardan ikisi Bakıda, digərləri Hacıqabul, Göyçay və Ağdam rayonlarında açılacaq. Sosial xidmət mərkəzlərində sosial işçi, psixoloq, sosial pedaqoq, loqoped və aktiv terapevtlər tərəfindən əlilliyi olan uşaqlara və sosial xidmətə ehtiyacı olan digər şəxslərə, ailələrə sosial-reabilitasiya xidmətləri göstəriləcək.

### Proqnozlar nikbinlik doğurur

Birləşmiş Millətlər Təşkilatının proqnozlarına əsasən, 2025–2026-cı illərdə Azərbaycanda ÜDM-in artımı 3 faiz təşkil edəcək. Dünya Bankının qiymətləndirmələrinə görə isə bu il 2,7, 2026-cı ildə isə 2,4 faiz artacaq. Bu il ölkəmizdə ÜDM artımını 2,5 faiz səviyyəsində proqnozlaşdıran Beynəlxalq Valyuta Fondu 2029-cu ildə bu göstəricinin 2,4 faiz təşkil edəcəyi qənaətindədir.

### Ötən ilin mina təmizliyi

Ötən il 110,27 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib, 161 ədəd piyada, 20 ədəd tank əleyhinə mina, 220 ədəd partlamamış hərbi sursat zərərsizləşdirilib. Eyni zamanda, ötən il işğaldan azad edilmiş ərazilərdə 15.9 km yeni yol çəkilib, 126.5 km yol əsaslı təmir olunub.

# Daxili işlər naziri əməliyyat müşavirəsi keçirib

## Hərbi qulluqçuların ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlər yüksək qiymətləndirilib

**Yanvarın 14-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Daxili Qoşunlarının 2024-cü ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham





Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, işğaldan azad edilmiş şəhər və rayonlarda, o cümlədən COP29 zamanı hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir Vilayət Eyvazov ötən hesabat ilində Qoşunların fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

*"Polis"*

# Təhlükəsiz Bakı metrosu

## Yer altında sərnişinlərin təhlükəsizliyi polisə əmanətdir

Bakı şəhərində sərnişindaşımanın əsas yükü metronun üzərinə düşür. Bu ildən etibarən 10 yeni metrostansiyanın tikiləcəyini də nəzərə alsaq, yaxın illərdə yeraltı nəqliyyatdan istifadə edənlərin daha da artacağını indidən söyləmək olar. Metronun şəhər həyatı üçün bu qədər önəmli olması onun təhlükəsizliyilə bağlı görülən tədbirlərə də diqqət çəkir.

Sərnişinlərin metroda təhlükəsizlik tədbirlərinin son illərdə nə qədər gücləndirildiyinə özləri də şahidlik edirlər. Bir neçə il bundan əvvələ qədər sərnişinlərin yoxlanılması ilə bugünkü yoxlanışlar arasında böyük fərq var. İndi proses daha sürətli, daha etibarlı şəkildə həyata keçirilir. İntensiv istifadə olunan stansiyaların girişində quraşdırılan X-Ray aparatları sayəsində sərnişinlərin çantalarının yoxlanılması, demək olar ki, tam avtomatlaşıb.

Ümumiyyətlə, metropolitendə təhlükəsizlik üçün polisin bütün zəruri texniki imkanları mövcuddur. Polis əməkdaşları təkmilləşmiş mühafizə vasitələrilə fasiləsiz olaraq güclü nəzarət tədbirləri keçirməklə mümkün riskləri vaxtında önləyə bilir. Məsələn, şübhə doğuran şəxslərin yoxlanılması, həmçinin qadağan olunmuş əşyaların metropoliten



ərazisinə keçirilməsinin qarşısının alınması müasir avadanlıqlardan istifadə edilməklə həyata keçirilir. Metroda təhlükəsizlik qaydalarını pozan şəxslərin polis əməkdaşları tərəfindən qısa müddətdə aşkarlanaraq barələrində müvafiq tədbirlərin görülməsi polisin öz xidmətini necə operativliklə yerinə yetirdiyini bariz şəkildə sərgiləyir.

Beləliklə, qeyd edə bilərik ki, BŞPİ-yə bilavasitə tabe olan Metropolitendə Polis İdarəsinin əməkdaşları tərəfindən gündəlik olaraq bu istiqamətdə görülən bütün zəruri tədbirlər sərnişinlərin tam təhlükəsiz daşınmasını təmin edir, metroda ictimai qayda etibarlı qorunur.

Sərnişinlərin metrodan istifadə intensivliyini, sıxlığı nəzərə alanda, təbii ki, yer altında özünün qaranlıq əməllərini həyata keçirmək istəyən kriminal ünsürlərin bundan istifadə etmələri qaçılmaz olur. Belə vəziyyət, əsasən, cibgirlik hallarına yol açır.

Metropolitendə Polis İdarəsindən aldığımız məlumata görə, ötən il metroda 50-yə yaxın oğurluq və cibgirlik hadisəsi baş verib. Bu hadisələrin, demək olar ki, hamısının üstü açılıb. Təhlükəsizlik qaydalarını pozduğuna görə 400 nəfərə yaxın vətəndaşa protokol tərtib olunub. Həm cinayət işlərilə əlaqədar, həm də digər mülkü məsələlərlə bağlı axtarışda olan şəxslər metro polisi tərəfindən müəyyən edilərək saxlanılıb və aidiyyəti üzrə təhvil verilib.

Belə görünür ki, metronun yeni nəsil texniki avadanlıqlar, müasir üztanıma və kameralarla təchiz edilməsi polis əməkdaşlarına yer altında hüquq və qanun pozuntularına yol verənləri böyük peşəkarlıqla aşkara çıxarmağa imkan verir. Bu da təbii ki, metronu sərnişinlər üçün təhlükəsiz nəqliyyat vasitəsinə çevirir.

Ötən il Bakıda keçirilən BMT-nin COP29 sessiyası zamanı da metro polisi bütün paytaxt ərazisində təmin edilən təhlükəsizlik tədbirlərində önəmli qüvvə kimi iştirak edirdi. Beynəlxalq tədbir iştirakçılarının bir qisminin istifadə etdiyi ictimai nəqliyyat vasitəsi məhz metro oldu. Bu dövrdə metroda hər hansı insidentin yaşanmaması göstərdi ki, tədbirlə əlaqədar gücləndirilmiş iş rejimində xidmət edən metropolitenin polis əməkdaşları Bakının bu möhtəşəm tədbirə evsahibliyi etməsinə də böyük töhfə veriblər.

*R.Mehtiyev*

# Bələdiyyə seçkilərinə hazırlıq görülür

## Seçkilərdə polisin xidməti fəaliyyətinə həsr olunan regional seminar-müşavirələrə başlanılıb

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinə yüksək səviyyədə hazırlıq görülür, azad, ədalətli və şəffaf keçirilməsi, habelə fərqli statuslu seçki iştirakçılarının maarifləndirilməsi məqsədilə müxtəlif istiqamətlər üzrə layihələr davam etdirilməkdədir.

Genişmiqyaslı proqrama uyğun olaraq, Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində regional seminar-müşavirələrə start verilib və ilk tədbir Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyi təmsilçilərinin iştirakı ilə yanvarın 14-də Bakı Şəhər Baş Polis İdarəsində təşkil olunub. Polisin xidməti fəaliyyətinə həsr edilən sözügedən layihə bələdiyyə seçkiləri keçirilən seçki





dairələri, dairə seçki komissiyalarının sədrlərini və polis orqanlarının nümayəndələrini əhatə edir.

Seminar-müşavirələr zamanı Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin aidiyyəti qurumlarının nümayəndələrinin təqdimatında bələdiyyə seçkilərinə hazırlıq mərhələsi, seçkiqabağı təşviqat dövrü, o cümlədən səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrinə dair çıxışlar dinləniləcək, fikir mübadiləsi və müzakirələr aparılacaq.

Qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn layihə növbəti mərhələdə yanvarın 16-da Gəncədə, yanvarın 17-də Şəkidə, yanvarın 18-də Şirvanda və yanvarın 21-də Naxçıvanda regionlar üzrə dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı ilə keçiriləcək.

Qeyd edək ki, bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" da hazırlayıb və aidiyyəti üzrə çatdırılıb.

# Sıramızdakı qəhrəmanlar

## Ona həvalə olunan postu səngər bilir

**Qorxunu yenmək uzun və çətin bir prosesdir. Bu o zaman mümkün olur ki, yaranmış şərait səni ona qalib gəldikdən sonra baş verənlərin fərqində olmayacağına əmin edir. Yəni yaşamaq, həyata vida etmək, sağ qalmaq, ölmək kimi anlayışlar sadəcə rəngini dəyişir. Bu qənaətə mən gəlməmişəm, onlar gəlib.**

Onlarla həmsöhbət olduqdan sonra müharibənin təkcə qan rəngində deyil, digər rənglərdə olduğunu da anlayırsan. Məsələn, müharibəni yaşıl rəngdə təsəvvür edəndə sağ çıxacağına əminliyin daha da artır. Çünki yaşıl dinimizin rəngidir və biz döyüşlərdən sağ çıxaq deyə analarınızın, doğmalarımızın duası da bu rəng çaları ilə qoşun-qoşun göylərə ucalar. "Anan namaz üstə imiş",- deyimi eləbelə yaranmayıb ki…

Döyüş meydanında bütün rənglər bir-birinə qarışanda onu ayırmaq üçün qaldırılan ağ bayraqlar təkcə təslimiyyət anlamına gəlməməlidir. Bu, ölənlərin ruhuna hörmət əlaməti olaraq sükut kimi də qiymətləndirilə bilər.

Düz 30 il ərzində qaraya bürünmüş, qara əllərin boğmağa çalışdığı həqiqətin üzünün hər zaman ağ olduğunu sübut etmək üçün 2020-ci ilin payızında silahımızı günəşin ılıq nəfəsində isidib düşmənə tuşladıq. Üzümüzə bağlanan qapıları arxadan qıfıllayan əlləri dibindən qırıb atmaq naminə birləşdik.

Sentyabrın 27-dən başlayaraq haqqı, haqlını görsünlər deyə elə bir döyüş rüzgarı əsdirdik ki, yer-yerindən oynadı. Alınan hər qarış torpaq toxtaqlıq tapdı, sevindi, təzələndi.

Yaddaş kitabımızın unutmaq və unutqanlıq səhifəsini birdəfəlik bağladıq. Düşmənə nifrətimizi elə bülövlədik ki, günü bu gün ayağa qalxsa yer üzündən silinəsidir…

Dünən olduğu kimi, bu gün də "Qanım torpağın olmasa, Vətən məni bağışlama",- deyən oğulların səfi pozulmayıb. Odun, alovun içindən, torpaq ətrinə bələnmiş səngərdən sıramıza qoşulublar. Onları tanımaq, tanıtmaq bizim borcumuzdur.

Sabunçu Rayon Mühafizə İdarəsinin əməkdaşı polis serjantı Elnur Qəşəmov 2002-ci ildə Bakı şəhərində doğulub. 2019-cu ildə şəhid Əfqan Qadaşov





adına tam orta məktəbi bitirdikdən sonra 2020-ci ilin aprelində hərbi xidmətə yollanıb. Elə həmin ilin sentyabrında səhər saat 4 radələrində Qusardakı "N" saylı hərbi hissədə verilən həyəcan siqnalı, əslində, Vətən çağırır nidası idi…

Mənə elə gəlir ki, müharibədə heç bir zabit tabeliyindəki əsgərinə "şəhid olmaq istəyirsənmi" sualını verməz. Çünki o sualın cavabı boş qalan səngərdə, sahibi olmayan silahın sahibi axtarılanda və ya bir candan bir əza-əl, ayaq, göz, qulaq və s. yadigar qalanda verilmiş olur. Müharibələrdə sual qarşı tərəfdən üzərinə tuşlanan silah, atılan mərmidir. Ən tutarlı cavab isə səni hədəfə alan yerdə illərlə dalğalanmayan bayrağının dalğalanmasıdır.

Elçin deyir ki, müharibə başlayanda onların ilk istiqamət götürdükləri hədəf Xankəndi olsa da Füzulidə, Cəbrayılda, Xocavənddə döyüşlərə qatılıb. Təlimlərdə yenicə bərkiyən bir əsgərin müharibə rüzgarına duruş gətirməsi əslində elə də zaman almır. Gözün döyüşə, qana, qulağın top, mərmi səsinə öyrəşəndən sonra elə bilirsən ki, odun-alovun içində dünyaya gəlmisən. Əslində həqiqət də budur ki, torpaqlarımız işğal olunandan sonra doğulanlar müharibənin iti kisi, xofu ilə böyüyüblər. Ancaq o oğulların içində nə zamansa edəcəkləri bir qəhrəmanlıq gizlənib və o Vətən müharibəsi başlayanda düşmənə nifrətə, qisasa çevrilib.

"Müharibənin son günündək cəbhədə oldum. Düzdü, qələbə qazandıq, torpaqlarımızı azad etdik. Şəhid olmuş döyüş yoldaşlarımın yarım qalmış ömrünü o torpaqlara sancdığımız bayraqlar davam etdirəcək bundan sonra. O bayraqlar orda dalğalandıqca onların da ruhu şad olacaq"…

O, hərbi sanitar kimi döyüş meydanından yaralıların, şəhidlərin çıxarılmasında öz həyatını belə riskə ataraq iştirak edib.

"Xankəndi ətrafında şəhidimiz vardı. Onun üzərinə ermənilər mina bağlamışdılar ki, meyiti götürəndə əlavə itki verək. Müəyyən tədbirləri həyata keçirdikdən sonra həmin ərazidən şəhidimizi götürə bildik. Biz onda bir daha şahidi olduq ki, düşmən nə müharibə qaydalarına riayət edir, nə insani, nə də İsani dəyərlərə.

Həmkarımız 2021-ci ildə ordu sıralarından tərxis olunub. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

Vətəni azad etmək üçün verilən meydandan çıxanların çoxu kimi o da polis olmaq üçün 2022-ci ildə Daxili İşlər Nazirliyinə müraciət edib. Vətən müharibəsi iştirakçısı olaraq sıralarımıza qoşulmaq istəyi nəzərə alınıb və elə həmin il də əmri verilib.

Sabunçu RMİ-də xidmətə başladığı gündən məsuliyyəti, xidmətə münasibəti ilə fərqlənib. İdarə rəhbərliyinin və komandir heyətinin verdiyi tapşırıqların icrasında birincilərdəndir. Dövlətin, vətəndaşın əmlakını mühafizə etməklə, asayişi qorumaqla, cinayətkarlıqla mübarizə aparmaqla Vətənə, vətəndaşa xidmət etməklə inamı və etimadı doğrultmağa çalışır. Yaxşı bilir ki, ona həvalə olunan post onun səngəridir.

**P.S. Müharibədə hamı əsgərdir. Bu fikir əslində reallığa söykənir. Həmsöhbət olduğum Vətən müharibəsi iştirakçıları deyirlər ki, döyüşə girəndə zabitlərimiz paqonlarını çıxarırdılar. Bu o deməkdir ki, Vətən qarşısında verdiyimiz bu hesabatda hamımız birik. Çünki güllə seçim eləmir.**

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Peşəkarlar təcrübələrini bölüşürlər

## Qarşılıqlı hüquqi yardımın mahiyyəti barədə müzakirələr aparılıb

Bakı Apellyasiya Məhkəməsinin hakimi Murad Məmmədov Polis Akademiyasında "Cinayət işlərinə dair hüquqi yardımın göstərilməsi və hökmün icrası qaydasında icraat" mövzusunda seminar məşğələsində iştirak edib.

Qonaq ölkəmizdə hüquqi yardım göstərilməsi qaydasında prosessual və digər hərəkətlə-



rin həyata keçirilməsinin normativ-hüquqi əsasları və hüquqi yardım göstərilməsinin ümumi şərtləri barədə kursantlara ətraflı məlumat verib.

Məşğələdə qarşılıqlı hüquqi yardımın həyata keçirildiyi cinayət işləri, bu sahədə hüququn tətbiqi təcrübəsində mövcud problemlər və onların həlli yolları, o cümlədən qanunvericiliyin aidiyyəti maddələri, mövzunun praktiki əhəmiyyəti barədə geniş müzakirə aparılıb.

Seminarın sonunda hakim Murad Məmmədov hakimlərin icraatına verilən müvafiq indeksli işlər, apellyasiya məhkəməsinin fəaliyyəti barədə kursantları maraqlandıran sualları ətraflı cavablandırıb və gələcək peşə fəaliyyətlərində onlara uğurlar arzulayıb.

*"Polis"*

# Polislər şagirdlərlə görüşüblər

## Birgə mübarizənin faydaları da diqqətə çatdırılıb

Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirici görüşləri davam etdirirlər.

Səbail Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 132-134 və 236 nömrəli tam orta məktəblərdə şagirdlər, valideynlər, eləcə də pedaqoji heyət qarşısında çıxış edən RPİ-nin rəisi, polis polkovniki Hikmət Qasımov narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərini diqqətə çatdırıb, onların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkib.

Görüşlərdə çıxış edənlər cəmiyyətin ciddi bəlasına, mili-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın gəncliyimizi təhdid etdiyindən narahatlıqlarını ifadə edib, bu istiqamətdə hüquq - mühafizə orqanlarının, xüsusilə də polisin keçirdiyi maarifləndirmə və mübarizə tədbirlərinə hər kəsin kömək etməsinin vətəndaşlıq borcu olduğunu bildiriblər.

"Narkomaniyaya yox deyək!" adlı növbəti tədbir Kürdəmir Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonun Atakişili kənd tam orta məktəbində keçirilib. Tədbirdə şöbənin əməkdaşları, rayonun mərkəzi xəstəxanasının həkimi və təhsil işçiləri iştirak edib.

Kürdəmir RPŞ-nin rəisi polis polkovniki Arzu Rzayev bəşəriyyətin ən ağrılı problemlərindən sayılan narkomaniyanın cəmiyyətdə səbəb olduğu sağlamaz fəsadlardan, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı hüquq-mühafizə orqanlarının, o cümlədən polislərin apardığı qətiyyətli mübarizədən bəhs edib, bu sahədə əldə edilən uğurlardan danışıb.

Diqqətə çatdırılıb ki, bu mübarizə tədbirləri ilə birlikdə gələcəyimiz olan uşaq və gənclərə keçirilən maarifləndirici görüşlər onlarda narkomaniya bəlası haqqında dolğun məlumatların yaranmasında mühüm əhəmiyyət kəsb edir.

Daha sonra məktəblilərə DİN-in Polis Akademiyasına qəbul qaydaları və Akademiyadakı təhsil şəraiti haqqında ətraflı məlumat verilib.

Sonda məktəblilərin müzakirə olunan mövzularla bağlı sualları cavablandırılıb, xatirə şəkli çəkdirilib.

# Baş İdarə əməliyyat keçirdi

## Bu dəfə də eyni əmələ görə tutuldu

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Xətai rayonu ərazisində keçirilən növbəti tədbir nəticəsində əvvəllər də narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 42 yaşlı Seymur Əliyev saxlanılıb. Onun idarə etdiyi avtomobildən 33 kiloqrama yaxın tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş marixuana aşkarlanıb. Bu şəxs narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşının vasitəsi ilə Biləsuvar rayonu ərazisindən əldə edib və Bakı şəhərində ayrı-ayrı ünvanlara yerləşdirərək satışını təşkil etməyi planlaşdırıb.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, araşdırmalar davam etdirilir.

# Narkotik və silah götürülüb

## Faktlarla bağlı araşdırma aparılır

Nərimanov Rayon Polis İdarəsinin və ərazi Polis Şöbələrinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi, odlu silah-sursatın əməliyyat və profilaktik tədbirlərlə aşkar edilməsi istiqamətində əməliyyatlar keçiriblər. Tədbirlərlə 40 yaşlı Danial Alıyev, 35 yaşlı Nizami Bayramov, tanışı 34 yaşlı Nicat Əlizadə, 37 yaşlı Cəlil İsmayılov və narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən daha 7 nəfər saxlanılıb. Bu şəxslərdən ümumilikdə 11 kiloqram tiryək, marixuana, metamfetamin, 100 ədəd psixotrop tərkibli təsiredici həb aşkar olunaraq götürülüb. Nizami Bayramov, Nicat Əlizadə və Cəlil İsmayılovdan əlavə olaraq 1 ədəd "AKM" markalı avtomat, 1 ədəd "Makarov" tapançası, 8 ədəd patron və patron darağı da aşkar edilib. Bu şəxslər narkotikləri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşlarının vasitəsi ilə əldə edib paytaxt ərazisində ayrı-ayrı ünvanlara yerləşdirərək satışını təşkil etməyi planlaşdırıblar.

Faktlarla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırmalar aparılır.

Bundan başqa, Nərimanov rayonunda aparılan profilaktik tədbirlər zamanı 1 ədəd "Kalaşnikov" avtomatı tapılıb və vətəndaşlarda saxlanılan 6 ədəd tüfəng könüllü olaraq polisə təhvil verilib.

# Keçmiş məhkumun şakəri

## Yolu bu dəfə də məhbəsdən düşəcək

Binəqədi və Nəsimi rayonları ərazisində yerləşən 2 obyektdə naməlum şəxsin alış-veriş edən zaman kassaya saxta pul əskinasları verməsi barədə polisə məlumat daxil olub. Keçirilən tədbirlərlə qeyd edilən əməli törətməkdə şübhəli bilinən, əvvəllər dələduzluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş A.Nuriyev müəyyən olunaraq saxlanılıb. Ondan psixotrop maddə olan metamfetamin də aşkarlanaraq götürülüb.

Araşdırmalar aparılır.

# Oğrular saxlanılıb

## Aralarında keçmiş məhkum da var

Nizami rayonu Q.Qarayev prospektində yerləşən mağazadan qızıl-zinət əşyasının oğurlanması barədə polisə məlumat daxil olub. Polis əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə oğurluq əməlində şübhəli bilinən E.Mansurov müəyyən olunaraq saxlanılıb.

Nizami rayonunda polis əməkdaşlarının keçirdikləri digər tədbir nəticəsində isə rayon ərazisindəki apteklərin birindən oğurluğa cəhd göstərən İ.İsmayılzadə, M.Sadıqov da müəyyən olunaraq saxlanılıb.

Səbail rayonu ərazisində isə müxtəlif vaxtlarda bir nəfərin mobil telefonunu oğurlamaqda, digərinin isə mobil telefonunu dələduzluq yolu ilə ələ keçirməkdə şübhəli bilinən, əvvəllər narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 33 yaşlı M.Əliyev müəyyən olunaraq saxlanılıb.

Faktlarla bağlı araşdırmalar aparılır.

# "Sovqat" ünvanına çatmadı

## Şəxsiyyəti istintaqla araşdırılan İranlının qurbanı oldu

Xəzər Rayon Polis İdarəsinin əməkdaşları Binə qəsəbəsində narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat həyata keçiriblər. Tədbir zamanı qeyd edilən əməli törətməkdə şübhəli bilinən paytaxt sakini Babək Əhmədov saxlanılıb. Ondan ümumilikdə 6 kiloqrama yaxın heroin və marixuana aşkarlanıb. B.Əhmədovun narkotikləri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşından əldə etdiyi və deyiləcək ünvanlara çatdırmağa razılaşdığı müəyyən edilib.

Faktla bağlı araşdırma aparılır.

# Polis Akademiyasına müsabiqə başlayıb

## Şərtlər, yaradılan şərait və perspektivlər






**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**






# İlin ən yaxşıları mükafatlandırıldı

## Onların sırasında biz də varıq

İlin idman yekunları ilə bağlı Gənclər və İdman Nazirliyi tərəfindən yanvarın 9-da qala mərasimi təşkil edilib.

Tədbirə idman təşkilatlarının, federasiyaların, media qurumlarının rəhbərləri, idmançılar, məşqçilər və idman ictimaiyyətinin nümayəndələri qatılıblar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva da mərasimdə iştirak edib.

Qala mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Qeyd olunub ki, 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olub. Sonra 2024-cü ilin idman yekunları barədə hesabat videoçarxı təqdim edilib. Daha sonra federasiyalar, idman jurnalistləri arasında və sosial mediada aparılmış sorğu əsasında müəyyənləşmiş müxtəlif nominasiyalar üzrə ilin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Qeyd edək ki, 2024-cü ildə uğurlu beynəlxalq fəaliyyətə görə mükafatlananlar sırasında Azərbaycan Atıcılıq Federasiyası da var. İlin qeyri-Olimpiya idman növləri üzrə ən yaxşı məşqçisi nominasiyasında DİN İdman Cəmiyyətinin İdman Təlimi Şöbəsinin rəisi polis polkovnik-leytenantı Eduard Məmmədov da qalib olub.

*"Polis"*

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbop-cis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər. Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **“Doğma diyarın gözəlliyi”**
3. **“Bizim növbəmiz”**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

*"Polis"*

# Payız imtahan sessiyası başlayıb

## Kursantların biliyi sınağa çəkilir

DİN-in Polis Akademiyasında 2024/2025-ci tədris ilinin payız imtahan sessiyasına start verilib.

İmtahanlar təsdiq olunmuş cədvəl üzrə fənlərin xüsusiyyətlərinə müvafiq olaraq praktiki, yazılı, şifahi və test üsulu ilə keçirilir. İmtahanların gedişinə müvafiq əmrlə təyin olunmuş nəzarətçi-koordinatorlar tərəfindən nəzarət edilir.



Təhsilalanların biliyinin qiymətləndirilməsində obyektivliyi və şəffaflığı təmin etmək, həmçinin baş verə biləcək neqativ halların qarşısını almaq məqsədilə apellyasiya və fənn komissiyaları yaradılıb.

Akademiyadan qəzetimizə bildirilib ki, imtahanlara hazırlığın səmərəli təşkili məqsədilə pedaqoji heyət tərəfindən kursantlarla əlavə məşələt saatları keçirilir, kitabxanalar, oxu zalları və elektron kitabxana gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

# Yaraşıqlı qatil - Ted Bandi

## Təhsilli və qəddar caninin gerçək həyat hekayəsi...

Hüquq fakültəsində oxuyan, siyasəti izləyən Ted Bandi 35-dən çox qadını qətlə yetirib. Ən qəddar qatillərdən biri olan Bandi haqqında bir çox sənədli film çəkilib. Bandi cazibədar hesab etdiyi qadınları qandallayıb ölənədək qanını axıdırmış.

Ted Bandi 24 noyabr 1946-cı ildə ABŞ-ın Vermont ştatının Burlinqton şəhərində anadan olub. Anası Eleanor Luis Kouel satıcı işləyirdi. Atasının kim olması barədə dəqiq məlumat yoxdur. Elenor Luis Kouel atası olmayan uşağın cəmiyyətdə mənfi qarşılanmasından qorxduğu üçün Bandini öz oğlu kimi yox, qardaşı kimi təqdim edirdi. Bandi nənə və babasını ata-anası, anasını isə bacısı bilirmiş. Uşaqlıq illərində psixoloji problemləri olan Bandinin anası panik atak xəstəsi idi, o, həmin illərdə anasının ağır depressiyalarına şahidlik edib.

Hələ uşaq yaşlarından oğurluğa başlamışdı, hətta o qədər profesionallaşmışdı ki, uzun müddət onun oğru olduğu heç kimin diqqətini çəkməmişdi. O, artıq mağaza soymaqdan zövq almağa başlamış, bu işdə özünü tapmışdı. Böyüdükcə insanlar arasında özünü tək hiss edən Bandi zamanla ünsiyyətlərdən qaçmağa başlayıb. Hüquq fakültəsinə qəbul olan, siyasəti yaxından izləyən Bandinin daxilindəki canilik hissləri zamanla üzə çıxmağa başlayıb. Ali təhsilli, hörmət sahibi biri olaraq görünən gənc Bandi ilk qətlini 4 yanvar 1974-cü ildə həyata keçirib.

Onun ilk qurbanı Coni Lenz adlı bir qız idi. O, pəncərədən qızın yataq otağına girib və qıza sopa ilə vuraraq cinsi işgəncələrlə öldürüb. Coninin cəsədi səhər qan içində tapılıb.

Linda Ann Haley adlı qız isə Vaşinqton Universitetində psixologiya fakültəsinin tələbəsi idi. 31 yanvar 1974-cü ildə gecə yatdıqdan sonra Bandi qızın otağına girib və ona təcavüz edib. Daha sonra qızı evdən çölə çıxardıb. Qızın parçalanmış əzaları və başı 1 il tapılmayıb. Bandinin qızları öldürdükdən sonra cəsədin bəzi əzalarını evinə aparıb xatirə kimi saxladığı məlum olub. Onun evində tapılan qadın başları saçları yuyulmuş, üzləri makiyajlanmış olaraq sənədləşdirilib.

Ted Bandi qoltuq dəyənəkləri ilə, gipsli ayaqla axsayaraq gəzib kitablarını yerə salırdı və qızlardan kitablarını yerdən götürüb verməsəri üçün kömək istəyirdi. Corcian Hakinqs də belə tələyə düşüb. Ted kitabları maşına qoymaq üçün əyilən qızın başına dəmirlə vurub, maşının içinə mindirib. Əsasən, qurbanlarını Sietldəki meşəyə aparan Ted əlindən qaçmağa cəhd edən qızlara təcavüz edib.

Ted 1975-ci ildə Karol adlı bir qızı oğurladığı üçün tutularaq 15 il həbs cəzası alıb. İki il sonra məhkəmədə öz vəkilliyini edən Ted Bandi həbsxananın kitabxanasından qaçıb. İki ay sonra tutulan cani qısa bir müddət sonra yenidən həbsdən qaça bilib.

1978-ci ildə Florida ştatına gələrək tarixin ən böyük qətllərindən birinə imza atıb. Belə ki, Florida əyalət universitetindəki Çi Omeqa yataqxanasına girərək 15-20 dəqiqə içində vəhşi bir kütləvi təcavüz və qətllər törədib. O, 21 yaşlı Marqaret Bovmanı odunla döyərək öldürüb, 20 yaşlı Liza Levini döydükdən sonra boğub və ağır işgəncələrlə öldürüb. İki bacını isə odunla döyüb.Bandi 9 fevral 1978-ci ildə Kimberli Liç adlı 12 yaşlı qızı oğurlayaraq təcavüz edib və öldürüb. Daha sonra o, qızın cəsədini donuz damına ataraq şəhərdən qaçıb.Onun növbəti qurbanı 12 yaşlı Leynet Davn Kulver olub. O, qızı Pokatellodakı məktəbdən qaçıraraq otelə aparıb, orada qıza təcavüz edib və daha sonra boğaraq cəsədi Pokatellonun şimalındakı çaya atıb.

1978-ci il fevralın 15-də Bandi Pensakola şəhərinə gedərkən polis tərəfindən saxlanılıb. Maşının oğurluq olduğu məlum olandan sonra Bandi həbs olunub. İlkin dindirmə zamanı Bandi bir neçə cinayəti etiraf edib. Onun məhkəmə prosesləri davam edərkən Bandi Karol An Bon ilə məhkəmə salonundaca evlənib.

1979-cu ildə məhkəmə Ted Bandinin elektrik stolunda edam edilməsi qərarını verib.

1982-ci ildə An Bon və Ted Bandinin qız övladları dünyaya gəlib. Ancaq sonralar Bon Bandidən boşanıb, özününün və qızının soyadını dəyişdirib. Ted Bandi Florida Dövlət Həbsxanasına göndərilib və burada öz ölüm sırasını gözləməyə başlayıb. Bandi həbsdə olarkən bir çox cinayətlərin açılmasında FBİ agentlərinə kömək edib. Ted Bandi edam edilməsindən bir gün əvvəl verdiyi müsahibəsində vəziyyətin bu həddə gəlməsində cəmiyyətdə olan zorakılıqları göstərib. Onun son sözləri “Ailəmə və dostlarıma sevgilərimi çatdırın” olub.

24 yanvar 1989-cu ildə Ted Bandi elektrik cərəyanına qoşularaq edam edilən də çöldəki izdiham “Yan, Bandi, yan” deyərək bağırırdı.

*Aytən Tahirova*
*polis baş leytenantı*

# Müdriklərin söz xəzinəsi

## Cəfa çəkməyən səfa görməz

Ağıllı düşmən nadan dostdan yaxşıdır.

❖❖❖

Baş-başa verməyincə daş yerindən qalxmaz.

❖❖❖

Birlik harada, dirilik orada.

❖❖❖

Çalışqan əl nəyə dəysə, qızıl olar.

❖❖❖

Bir şam digərini yandırmaqla işığını itirməz.

❖❖❖

Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır.

❖❖❖

Ən qorxulu qəzəb səbirli adamın qəzəbidir.

❖❖❖

Başqaları sənin doğrularını yalnış hesab etsə belə, onlardan üz döndərmə.

❖❖❖

Müdriklik və böyüklük adamın daxilindən başlayır.

❖❖❖

Səhv etməkdən qorxma, səhvi təkrar etməkdən qorx.

❖❖❖

Heç kim sənə dost və düşmən deyil, hər ikisi sənin üçün müəllimdir.

❖❖❖

Zəiflər intiqam alır, güclülər bağışlayır, əfv edirlər.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik